# JURNALİSTİKA

## İNSAN HÜQUQ VƏ AZADLIQLARI BEYNƏLXALQ JURNALİSTİKANIN ƏSAS MƏNBƏYİDİR

**S.R.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***sabir.rma rambler.ru***

*Məqalədə qeyd olunur ki, beynəlxalq informasiya əməkdaşlığının mahiyyətində demokratik dəyərlərin inkişafı dayanır. Söz və fikir azadlığı, özünüifadə sərbəstliyi insan haqlarının ayrılmaz hissəsidir. Müəllif xüsusi vurğulayır ki, insan haqlarının bərqərar olunması bütövlükdə cəmiyyətin inkişafına yeni məzmun gətirir, ölkənin yüksəldilməsinə böyük imkanlar yaradır.*

İdeya və düşüncə azadlığı, insan haqları, şəxs və cəmiyyət münasibətləri tarixən həmişə müxtəlif mülahizələr obyekti olmuşdur. Bu məsələ hər bir zaman aparıcı mütəfəkkirlərin diqqətini cəlb etmişdir. Azadlıqlar sırasında söz və fikir sərbəstliyi bəşəriyyətin əldə etdiyi ən yüksək dəyərlərdən hesab olunur. Mətbuat və informasiya azadlığı isə dünya mədəniyyətinin təkamül inkişafını reallaşdıran əsas amillərdəndir.

Mətbuat azadlığı ideyasının tarixi orta əsrlərin son dövründən başlayır. Bu dəyər faktiki olaraq jurnalistikanın bir sosial institut kimi yarandığı vaxtdan meydana çıxmışdır. Həmin dövrdə İngiltərə parlamenti kral hakimiyyətinin mətbu fəaliyyətə lisenziya verilməsi haqqında qanunu ləğv etdi. Beləliklə, mətbuat üzərində hakimiyyət dairələrinin nəzarətinə, monarxiya inhisarına, dövlət senzurasına və məmur rüşvətxorluğuna son qoyuldu. Bu tarixi qərar mətbuat azadlığı ideyasının geniş yayılmasına güclü təkan verdi. Sözsüz ki, sonrakı dövrlərdə hər bir ictimai-siyasi şəraitin xarakterinə uyğun olaraq mətbuat azadlığı ideyası müxtəlif təsirlərə məruz qaldı və nəticədə bir sıra fərqli konseptual yanaşmalar meydana çıxdı. Mətbuat azadlığına inqilabi-demokratik baxış gənc burjuaziyanın formalaşdığı və feodalizm qalıqları ilə mübarizə apardığı dövrə təsadüf edir. Mətbu fəaliyyət sahəsində dövlət hökmranlığına son qoymaq, qəzet və jurnalların nəşri üçün istifadə olunan istehsal vasitələrini bütün təşkilatlara və vətəndaş birliklərinə vermək inqilabı-demokratların bu sahədə başlıca vəzifəsi idi.

Paralel olaraq cəmiyyət içərisində azad jurnalist fəaliyyətini sahibkarlıq maraqları ilə uzlaşdırmağa çalışanlar da az deyildi. Bu sahədə baş verən fikir toqquşmaları bir çox ölkələrdə müşahidə olunurdu. Kütləvi informasiya vasitələrin fəaliyyətində mənəvi və maddi amillərin uzlaşması heç də asan başa gəlmirdi. Hamı üçün aydın idi ki, yazar və jurnalist yaşamaq və yaradıcılıqla məşqul olmaq üçün pul

qazanmalıdır. Amma sözün geniş mənasında onlar yalnız qazanmaq üçün yazıb – yaratmalı deyillər. Bunun əksinə olaraq başqaları düşünürdülər ki, yazar qazanmaq üçün yaşayıb – yaratmalıdır.

Bu sahədəki mövcud ziddiyyətlər tək nəzəri məkanla məhdudlaşıb kifayyətlənmir. Hazırki dövrdə qəzet və jurnal redaksiyalarının fəaliyyətində bu problem özünü tez-tez biruzə verir.

Tarixi hadisələrin təhlili onu göstərir ki, mətbuat azadlığına dair sinfi-siyasi yanaşma əsasən kəskin sosial toqquşmalar zamanı özünü göstərir. Bu nəzəri baxışların daşıyıcıları olanlar ön plana vətəndaşların və yaxud onların ittifaqlarının, birliklərinin bərabər hüquqlarının əvəzinə müəyyən bir sosial qrupun maraqlarını çəkirlər. Reallıqda bu maraqların təmin olunması başqa təbəqələrin sıxışdırlması ilə müşayiət olunur. Mətbuat hər hansı bir sosial qrupun inhisarında olanda o, həqiqətən cəmiyyəti sosial-siyasi amillər üzrə parçalamaq qüdrətinə malik olur. Proletar diktaturasının mövcud olduğu dövrdə mətbuat yalnız fəhlə sinfi və onun aparıcı qüvvəsi olan siyasi partiyanın ideoloji iradəsini həyata keçirirdi. Bununla bağlı olaraq proletar diktaturasının ideoloqları bütün vasitələrlə mətbuatı və ədəbiyyatı partiya nəzarətində saxlamağa çalışırdılar.

Qeyd etmək lazımdır ki, həmin məntiq yalnız sosial-sinfi təşkilatların liderlərinə aid deyil. O, həm də başqa ictimai birliklərin, o cümlədən millətçi, dini qurumların rəhbərlərinə xas ola bilər. Hazırki ictimai-siyasi şəraitdə Rusiyada və başqa MDB ölkələrində mətbuat azadlığı və onun sosial-sinfi həlli daha çox inzibati-siyasi rəngə boyadılır və modelləşdirilir. Yəni jurnalistika sahəsində dövlət hakimiyyətinin hegemonluğuna qayıdış müşahidə olunur.

Normativ-hüquqi konsepsiyasında isə kütləvi informasiya fəaliyyəti zamanı mətbuatın, dövlətin, hüquqi şəxslərin, vətəndaşların, yəni bütün proses iştirakçılarının qarşılıqlı vəzifələri, imkanları və məsuliyyəti dəqiq müəyyənləşdirilir və aydın şəkildə təsbit edilir. Bu qaydalar öz əksini beynəlxalq müqavilələrdə, milli qanunvericilikdə, inzibati qərarlarda, etik kodekslərdə və başqa normativ sənədlərdə öz əksini tapır. Əhəmiyyətinə görə birinci yerdə qanunlar dayanır. Belə yanaşma bütün qabaqcıl ölkələrdə müşayiət olunur.

Demokratiyanın inkişafı yalnız bu yoldadır. Düzdür, mətbu fəaliyyəti hüquqi aktlarla tənzimləmək cəhdləri Rusiyada da bir neçə əsr bundan əvvəl olmuşdur və vaxtaşırı belə addımlar atılırdı. Amma mahiyyət etibarılə bu qaydalar jurnalistlərə sərbəstliklər və azadlıqlar vermək əvəzinə, onların üzərinə daha çox vəzifələr qoyurdu. Belə qanunverici aktlar qadağa mahiyyətli olduğu üçün daha çox dövlət senzurasının əlavəsinə çevrilirdi. Müstəqillik əldə etdikdən sonra bizim ölkəmiz üçün də mətbuat azadlığı sahəsində hüquqi-normativ yanaşmanın tətbiqi prinsipial əhəmiyyət kəsb edir.

Tarixi təcrübə göstərir ki, mətbuat üzərində dövlət nəzarəti müxtəlif formada ola bilər: ilkin (yəni materialın dərc edilməsi üçün icazə almaq sistemi) və cəzalandırıcı (həddi aşdığına görə cəzalandırma üsulu). Mətbuat azadlığı uğrunda mübarizə faktiki olaraq həmişə senzuraya qarşı hərəkata çevrilmişdi.

Hələ kitab çapına qədər katolik kilsə bütün əlyazma əsərlərini senzuradan keçirirdi və onların idarəolunmaz təsirindən çox narahat olurdu. XVIII əsr maarifçiliyin təsiri nəticəsində bir çox Avropa ölkələrində burjuaziya nümayəndələri senzuraya qarşı səslərini ucaltmağa başladılar. Bunun nəticəsində 1695-ci ildə İngiltərə senzuranı ləğv edən ilk müasir dövlət oldu. Sonrakı dövrdə senzuranı ləğv etmək

ideyası Avropada bir qədər zəiflədi. Amma ABŞ-da bu fikir özünə daha çox tərəfdar tapdı. 1776-cı ildə ABŞ-da qəbul olunmuş müstəqillik haqqında Bəyannamə insan hüquqlarının aliliyinə əsaslanırdı. Bunun özəyini isə şəxslərin özünüifadə azadlığı təşkil edirdi. Həmin il Virciniya ştatı öz Ana Yasasında «mətbuat azadlığı»nı azadlığın ən böyük dayağı elan etdi. Senzuranın ləğv olunmasına Avropa ölkələri gec yetişsələr də Fransa senzuranı 1789-cu ildə inqilab dövründə aradan qaldırdı. Tam həcmdə mətbuat azadlığı Fransada yalnız 1872-ci ildə bərqərar olundu. Alman imperiyasının bütün ərazisində mətbuat azadlığı qanunla 1874-cü ildə təmin edildi. Qəbul olunmuş həmin qanunda bir sıra qadağalar da öz əksini tapmışdı. Rusiyanın tarixi yolunun mürəkkəb və ziddiyyətli olması özünü mətbuat azadlığında da göstərirdi. Senzuranın ləğv edilməsi barədə Rusiya cəmiyyətində XIX əsrin 60-70-ci illərində başlanan müzakirələr müasir dövrə qədər davam etdi [1, 10-12]. Göründüyü kimi mətbuat azadlığı və bütövlükdə insan haqları uğrunda mübarizə demokratik cəmiyyət qurmaq savaşından keçir.

Əsrlər boyu davam edən bu savaşın kökündə vətəndaşların demokratik hüquqlara və azadlıqlara nail olmaq, onlardan istifadə etmək, tam sərbəst və azad şəkildə özünüifadə etmək istəyi durur. Ölkə vətəndaşlarının əsas məqsədi real olaraq bu dəyərləri əldə etmək və konstitusiya təminatı formasında onu həyata keçirməkdir.

Özünüifadə azadlığı bir sıra şəxsi hüquqları özündə etiva edir. Bu haqlar özünüifadə azadlığının ayrı-ayrı komponentləri olmaqla yanaşı müstəqil hüquqi anlayış kimi də çıxış edir. Qabaqcıl ölkələrin hüquq sistemlərinin təhlili həmin şəxsi hüquqların sırasına aşağıdakı prinsipləri daxil etməyə imkan verir:

- hər bir şəxsin öz düşüncəsinə və inancına sahib olmaq hüquqünu;
- iştənilən formada öz fikrini ifadə etmək hüququnu;
- istənilən məsələ üzrə azad informasiya mübadiləsi aparmaq hüququnu;
- suallara cavab verməmək hüququnu;
- başqa şəxslərdən informasiya almaq hüqüqünu;
- istisnasız olaraq bütün mənbələrdən informasiya sorğulamaq və əldə etmək hüququnu;
- başqa şəxslərlə ünsiyyət yaratmaq və birliklər təşkil etmək hüququnu.

Qeyd etmək lazımdır ki, bu haqların hər biri özünüifadə hüququnun təminatından irəli gəlir. Bununla belə şəraitdən asılı olaraq bu prinsiplər müstəqil hüquqi dəyər kimi qəbul olunur və müdafilə edilir [2. 9-10].

Cəmiyyət üçün özünüifadə azadlığının təmin olunmasının çox böyük üstünlükləri var. Bununla bağlı böyük mütəfəkkirlərin dərin və parlaq düşüncələri mövcuddur. İctimai fikir tarixi bu ideyalarla zəngindir və bunların əsasında bir çox nəzəri konsepsiyalar işlənib hazırlanıb. Mahiyyət etibarılə bu təlimlər fərqli olsalar da dörd əsas məsələdə onlar bir-biri ilə tam uzlaşır:

- söz azadlığı həqiqətin bərqərar olmasına kömək edir;
- söz azadlığı həqiqi demokratik idarəçiliyin yaranmasında cəmiyyətə yardım edir;
- söz azadlığı zorakılığa əl atmadan mübahisəli məsələləri həll etməyə kömək edir;
- söz azadlığı hər bir şəxsə cəmiyyətin bir üzvü kimi öz bacarığını realizə etməyə kömək edir.

Həqiqətin dərk edilməsi və bərqərar olunması özünüifadə azadlığı olmadan mümkün deyil. İdraka və həqiqətə can atan insan azad olmalıdır ki, hər hansı bir

məsələ ilə bağlı bütün tərəfləri dinləyə bilsin, müsbət və mənfi məqamları ayırd etsin, əks tərəfə öz mövqeini bildirməklə öz çıxarışlarını yoxlasın və nəhayət, bütün müxtəlif baxışlara giriş əldə etsin. Bu haqda görkəmli ingilis şairi Con Milton belə deyirdi: «Dərk etmək istəyi mülahizələri alovlandırır, fikirlər qat-qat artmış olur, ləyaqətli kişilər üçün həqiqət fikir toqquşmalarında yaranır» [2, 11].

Sərbəst fikir mübadiləsi prosesində həqiqəti üzə çıxarmaq üçün daha bir vacib şərt tələb olunur. İstisnasız olaraq istənilən fikir, nə qədər nüfuzlu görünməyindən asılı olmayaraq, şübhə altına alınmalıdır. Bu haqda məşhur ingilis filosofu Frensis Bekonun böyük və dərin nəzəriyyəsi mövcuddur [3, 6-12].

Söz azadlığı olmadan demokratiyaya nail olmaq, yəni siyasi qərarların qəbul olunması prosesində vətəndaşların həqiqi iştirakını təmin etmək mümkün deyil. Yalnız istənilən lazımi informasiyaya vətəndaşların girişi olduğu halda, nümayəndəlik idarəçiliyinə malik olan cəmiyyət demokratik yolla qərarlar qəbul edə bilər.

Bundan əlavə, söz azadlığı demokratik şəraitdə məmurların törətdikləri özbaşnalığın qarşısını almaqda və ifşa etməkdə böyük rol oynayır. Məhz söz, mətbuat və yığıncaq azadlığının gücü vasitəsilə seçilmiş nümayəndələrin vəzifə zorakılığının qarşısını almaq olur. Azad sözün təsiri nəticəsində məmurların xalq qarşısında hesabat vermək zərurəti əldə edilir, onların məsuliyyət hissi güclənir, öz əllərində qanunsuz yolla böyük hakimiyyət cəmləşdirmək imkanları məhdudlaşır.

Belə bir nəticə hasil olur ki, hakimiyyət orqanları tərəfindən hər hansı bir mətbu materialının və yaxud televiziya verilişinin qarşısını almaq cəhdi ən ciddi formada araşdırılmalıdır. Hələ 1931-ci ildə ABŞ-ın Ali məhkəməsi qeyd edirdi ki, artıq yüz əlli il ərzində məmurların vəzifə cinayətləri ilə bağlı materiallara əvvəllər olduğu kimi qadağaların tətbiq edilməməsi və buna ümumiyyətlə cəhd göstərilməməsi vətəndaşların düşüncəsində belə məhdudiyyətlərin insan haqlarına nə dərəcədə uyğun gəlmədiyini və konstitusiyanın birbaşa pozulduğunu sübut edir. Ali məhkəmə bu mövqeyi qırx ildən sonra da qəti surətdə bəyan etmişdi: «Hakimiyyət dairələrinin fəaliyyəti ilə bağlı aşkarlığın olmaması sırf antidemokratik xarakter daşıyır və saysız-hesabsız məmur özbaşınalığı yaradır. Millətin sağlamlığı üçün dövlət məsələlərinin açıq müzakirəsi həlledici əhəmiyyətə malikdir» [4]. Məhz buna görə, hesab olunur ki, hökümətin və məmurların fəaliyyəti ilə bağlı çəkinmədən tənqidi fikir bildirmək, mətbuatda material dərc etdirmək, radio, televiziya verilişi hazırlamaq üçün söz azadlığının mütləq konstitusiya təminatı olmalıdır və bu proses işlək halda həyata keçirilməlidir.

Söz azadlığı cəmiyyətdə ictimai qaydaları tənzimləyən və sabitliyi qoruyan ciddi bir amildir. Vaxtilə ingilis hüquqşünası və filosofu İeremiya Bentam «İdarəçilik haqqında oçerk» əsərində yazırdı: «Azad idarəçiliyin despotizmdən fərqi ondan ibarətdir ki, narazı olanlar sərbəst olduqlarına görə belə, idarəçilik şəraitində heç bir təhlükə olmadan öz hislərini açıq ifadə edə, istəklərini ümumiləşdirib hətta müxtəlif müqavimət formalarına əl ata bilirlər - yalnız açıq üsyankarlıq addımlarından başqa - çünki belə olan halda icra hakimiyyəti qanuni əsaslarla müdaxilə etmək hüququna malik olur» [2,14].

ABŞ-da söz azadlığına hörmət o dərəcədə yüksəkdir ki, ən radikal özünüifadə forması belə, bu hüquqi prinsiplə özünü müdafiə edə bilir. Hətta milli bayrağın yandırılması, Ali məhkəmənin 1989-cu il qərarına əsasən, özünüifadə azadlığı hüququnun təsiri altına düşür və müdafiə olunur. Bu qərarı verərkən hakim Uilyam Brennan xüsusi olaraq qeyd etmişdir: «Əgər Birinci düzəlişin əsaslı prinsipinə söykənsək, onda

məlum olar ki, hökumət heç bir kəsə hər hansı bir fikri ifadə etməyə qadağa qoya bilməz, üstəlik bu fikir özü-özlüyündə cəmiyyət üçün təhqiredici və yaxud qəbulolunmaz xarakterli olduğuna baxmayaraq belə»[5]. Ali məhkəmənin başqa bir üzvü vurğulamışdır ki, «nə qədər qəribə görünsə də, milli bayraq öz himayəsi altına hətta ona nifrət hissi bəsləyənləri də alır və müdafiə edir» [6].

Söz azadlığı hər bir şəxs üçün öz imkanlarını üzə çıxarmaq və bacarığını realizə etmək vasitəsi kimi çıxış edir. Bu haqda professor Tomas Emerson yığcam formada belə deyib: «İnsanın həyatdakı məqsədi özünü bir şəxs kimi reallaşdırmaq və bacarığını üzə çıxarmaqdır. Bunun üçün azadlıq lazımdır. Buradan belə nəticə hasil olur ki, özünüifadənin istənilən formada boğulması, fikrə qadağa qoyulması şəxsi ləyaqət hissinin təhqir edilməsi deməkdir və onun bir şəxs kimi inkar olunmasıdır». ABŞ-ın Ali məhkəməsi əsas insan haqlarından olan söz azadlığını belə xarakterizə etmişdir: «Heç bir məmur, yüksək və ya kiçik vəzifə tutmasından asılı olmayaraq, göstəriş verə bilməz ki, son instansiyada həqiqət məhz budur, istər siyasət olsun, istərsə - din, millətçilik və yaxud hər hansı bir başqa məsələ» [7].

Beləliklə, tam aydındır ki, özünüifadə azadlığının məqsədləri son dərəcə əhəmiyyətli və müsbətyönümlüdür. Bunlara nail olmaq üçün mövcud olan hüquq sistemi vətəndaşlara söz azadlığı sahəsində dolğun və əsaslı formada təminat verməlidir. İlk növbədə, hakimiyyət strukturları tərəfindən gözlənilən basqıların qarşısı alınmalı və bunun üçün işlək mexanizm hazırlanmalıdır (hətta hər hansı bir fikir ictimai maraqlara zidd olsa belə). Söz azadlığını məhdudlaşdırmağa çalışanlar hər zaman belə addımların əsaslandırılması əzabına duçar olurlar. Məhdudiyyətlər yalnız o vaxt işə düşə bilər ki, onlar inandırıcı zəminlər əsasında hazırlansın və heç də özündən kiçik olmayan hüququn pozulmasının qarşısını ala bilsin. Əgər məhdudiyyətlə müqayisədə ictimai çəkisi az olan məsələnin həlli üçün söz azadlığına qadağa qoyulursa, onda bu dəyərin bütöv mahiyyəti pozulur. Söz azadlığı hüququ bütün insanlara bəxş edilir: hökumətin tərəfdarlarına da, onu tənqid edənlərə də.

## ƏDƏBİYYAT


1. Смыслова Т.М. Международное информационное право. Методические
1. материалы к междисциплинарному спецкурсу. М.: ТЭНСИ, 2002, 192 с.
2. Концептуальный доклад о праве СМИ. Пер.И.Гаврилова / Современное право СМИ в США. М.: Право и СМИ, 1997, с.5-150.
3. Məmmədli S. Təbliğatın sosioloji və psixoloji mahiyyəti. Bakı: ULU, 2000, 34 s.
4. New York Times Co.v. United States, 403 u.s.713, 724 (1971) (Douglas, Y.concurring).
5. Texas v. Johuson. 491 U.S. 397. 414 (1989).
6. Texas v. Johuson. at 421 (Kennedy, J., concurring).
7. West Virginia State Board of Education v. Barnette, 319 U.S. 624, 642 (1943).


## ПРАВА И СВОБОДЫ ЧЕЛОВЕКА КАК ОСНОВНОЙ ИСТОЧНИК МЕЖДУНАРОДНОЙ ЖУРНАЛИСТИКИ


**С.Р.МАМЕДОВ**


### РЕЗЮМЕ


В статье рассматривается процесс формирования международной журналистики. Автор отмечает, что борьба за развитие демократии в обществе неразрывно связано с движением за осуществление прав и свобод человека. Самой важной составной частью

этих прав является право на свободу мысли и выражения. В статье раскрывается позитивная роль свободы слова во всестороннем развитии общества. Опираясь на международный опыт, автор анализирует отдельные компоненты свободы слова и выражения.

## THE RIGHTS AND FREEDOM OF THE PERSON AS THE BASIC SOURCE OF THE INTERNATIONAL JOURNALIZM

**S.R.MAMMADOV**

### SUMMARY

The article deals with the process of formation of the international journalism. The author notices, that struggle for the development of democracy in a society is inseparably linked with the movement for the realisation of the person's rights and freedom. The most important component of these rights is the right to thought and expression freedom. The article investigates the positive role of a freedom of speech in the all-round development of the society. Leaning against the international experience, the author analyzes separate components of a freedom of speech and expression.